Hər bir sahədə iki cür sənətkar olur: böyük zəhmət hesabına sənətkarlıq zirvəsinə ucalanlar və anadan sənətkar kimi doğulanlar. Zənnimizcə, müsahibim əsl sənətkar kimi bu dünyaya göz açanlardandır. Əlbəttə, həyatda böyük uğurlar heç də asanlıqla başa gəlmir. Şübhəsiz, bütün sənətkarlar kimi o da sənət yollarında çox əziyyət çəkib, ta ki, Gülyaz Məmmədova olana kimi.

Son vaxtlar mətbuata müsahibə verməkdə maraqlı olmayan Gülyaz xanımla Yeni il bayramı öncəsi söhbətləşmək bizə nəsib oldu. Beləliklə, müsahibimiz Xalq artisti, Prezident mükafatçısı, Akademik Opera və Balet Teatrının solisti, Rəşid Behbudov adına Dövlət Mahnı Teatrının solisti, Mədəniyyət və İncəsənət Universitetinin səs müəlliməsi, Asəf Zeynallı adına Musiqi kollecinin səs müəlliməsi Gülyaz Məmmədovadır.

# "Bütün dünyanın musiqiləri bizim muğamlarımız üstündə köklənib"



## Xalq artisti Gülyaz Məmmədova:
## "Niyə istedadlı gənclərimiz qıraqda qalmalıdır?! Mən indi danışmayım, nə vaxt danışım?! Artıq danışan yaşımdır, sözümü deməliyəm..."

***- Gülyaz xanım, yaradıcılığınızda nə kimi yeniliklər var, pərəstişkarlarınızı yeni mahnılarla sevindirməyi düşünürsünüz?***

- Musiqiçinin, ifaçının bir işi, bilirsiniz, nədir? Dayanmamalıdır, işləməlidir. Planlarımız çox olur, onu bilirsiniz. Musiqiçi daim mahnılar yazdıraraq, konsertlər ifa edərək, tamaşaçının qarşısında çıxış edərək, onların məhəbbətlərini qazanaraq özünü tamaşaçıya, xalqa unutdurmamalıdır. Səhnə budur. Nə qədər sosial şəbəkələr - "Facebook", "İnstagram", "Youtube2 kanalları var, daim aktiv olmalıyıq. Həm yeni mahnılarım var, həm də unudulmuş mahnıları arenjiman etdirib, yeni arenjimanla sevənlərimə, tamaşaçılarıma təqdim edirəm.

***- Hər bir sənətkarın sənətdə möhürünü vurduğu mahnısı var. Necə düşünürsünüz, Gülyaz Məmmədova adı çəkiləndə tamaşaçı sizi hansı mahnınızla yada salır?***

- Əslində, mən muğam ifaçısıyam. Muğamla sevilmişəm. "Mahur" dəstgahıyla çox sevildim. Mənim "Mahur" dəstgahım hər gün radioda səslənirdi. Qadınlardan "Şur" muğamını Sara Qədimova oxuyub, "Çahargah" muğamını Zeynəb Xanlarova "Mahur" muğamını da ilk dəfə mən oxumuşam. Çünki bu muğama kişi muğamı deyirlər. Daha doğrusu, kişi muğamı olub. Amma muğam dərsliyində bütün muğamlar keçirilir deyə, xanımlara da öyrədildi və hal-hazırda muğamlarımızı qadınlar da oxuyur, kişilər də. Bilirsiniz, muğam müsabiqələrində muğamlarımıza nə qədər muğam ifaçılarımız müraciət edirlər. O vaxt "Qərənfil abu gərək" mənzəriylə məşhur oldum. Sonra Zeynəb xanımın repertuarından "Səni arzularam" adlı mahnı ilə. Daha sonra öz ifam üçün mahnılar yazıldı, o mahnılar ifa olundu. Azərbaycan haqqında nə qədər mahnılarımız var ki, çox sevildi. Hara gediriksə, o mahnılar xalq arasında daha çox sevilir: "Sevsəm olarmı?", "Mənə gəl", "Səninlə birgə qocalmaq istəyirəm" və s.

***- Bildiyimizə görə, bu aralar tez-tez səfərlərdə də olursunuz. Bu barədə oxucularımıza məlumat verə bilərsiniz?***

- Əlbəttə ki, 2023- cü il mənim üçün gözəl il oldu. Kədərli anlarımız da olur, sevincli anlarımız da. Söhbət sırf sənətdən getdiyinə görə, son yarım ili deyim də, hamısını desəm onda gərək bu gün oturaq burda( Gülür.) Sentyabrda Ankarada festival oldu. İşğaldan azad olmuş bölgələrimizdə konsertlər oldu. 23 noyabrda Qırğıstanda oldum. Orda Heydər Əliyevin 100 illiyi ilə əlaqədar böyük konsert idi. Azərbaycan, Qırğızıstan diasporasının təşkilatçılığı ilə orda böyük konsert oldu. Mən orda canlı ifalar etdim. Azərbaycanımızı tərənnüm edən mahnılar və s. Ordan gəldim, birbaşa Füzuliyə getdim. Füzulidə Azərbaycan, Özbəkistan Qeyri-Hökumət Təşkilatlarının beynəlxalq musiqi forumu keçirildi. Orda Gülyanaqla çıxış elədik. Oğuz ellərinə həsr olunmuş gözəl mahnılar oxúduq. "Azərbaycan", "Türküz hamımız, bir soyuq" adlı mahnı da oxuduq. Sonra gəldim Xalq artisti Aygün Bayramovanın həyat yoldaşı Fəraməz bəyin yubileyi keçirildi, "Nəva dəsgahı" konsertində iştirak etdik. Orda mən Fəraməz bəyin gözəl təsniflərini oxudum. Dekabrın 3-dən, 7-nə qədər İraqın Bağdad şəhərində böyük bir beynəlxalq irs festivalı keçirildi. Mən də muğam qrupu ilə konsert verməyə getdim. Dekabrın altısında bizim çıxış idi. Hər günə bizim oğuz ellərinin bir ölkəsi çıxış edirdi. Azərbaycan kərkükləri, Türkiyə, İran İslam Respublikası, Türkmənistan türklərinin çıxışları oldu. Mən "İrs" muğam qrupunun rəhbərliyilə muğam qrupu ilə bəstəkar, xalq mahnıları ilə çıxış etdim. Hərəyə bir saat vaxt verilmişdi. Orda kamançada Fərid Babayev, balabanda Adil Müslümov, nağarada Vəfadar Ramizzadə ifa edirdilər, bzim çıxışımız çox gözəl qarşılandı. Azərbaycanlılardan bir adam görmürdüm mən. Bir səs rejissorumuz Təbrizdən idi, o da, sağ olsun ki, gözəl səslənmə verdi. Hamısı İraq xalqı idi. Çox maraqla izlədilər. Bizim milli geyimlərimiz, səhnədə çıxışımız - hamısı möhtəşəm idi. Konsertdən sonra gördük, şahidi olduq ki, insanlar bizi necə alqışlayırlar.



Ordan gələn kimi də Şuşaya getdim. Bilirsiniz ki, 2023-cü ildə Şuşa Mədəniyyət paytaxtı elan olundu. Türksoyun açılışı və bağlanışı oldu. Yaz aylarından başladı, 10 dekabrda tamamlandı. Böyük Azərbaycanda, Şuşamızda Türk oğuz ellərinin çıxışı oldu. Orda Özbəkistan, Türkmənistan vətəndaşları da çıxış etdi. Çox gözəl də qarşılandı. Mədəniyyət nazirimiz Adil Kərimlinin çıxışı ilə gözəl tədbir oldu. Yəni mən deyərdim ki, bu il gözəl il oldu.

Heydər Əliyevin 100 illiyi ilə əlaqədar nə qədər konsertlər keçirildi. Ulu öndərimizin 100 illiyi ilə bağlı elə 10 mayda Azərbaycanımız bayram etdi. O, elə bir şəxsiyyət olub ki, Azərbaycanı ideyalarıyla, layihələrilə zənginləşdirib. 2023-cü ildə hər yerdə, hər bölgəmizdə ulu öndərimizin 100 illiyi təmtəraqla qeyd olundu. "Gülüstan" sarayında dəfələrlə musiqi forumları, irs forumları keçirildi. Bütün incəsənət xadimləri üçün gözəl bir il idi.

Heydər Əliyev Mərkəzinin qarşısında "O tay, bu tay" adlı konsert oldu. Bunları danmaq olmaz. Çünki Azərbaycanın səsi bütün dünyaya yayılıb. Azərbaycanımız hələ də qələbəsini qeyd edir. Biz buna layiqiq. Allah şəhidlərimizə rəhmət eləsin, Allah qazilərimizə can sağlığı versin.

***- Uzun illərdir ki, bacınız Gülyanaq xanımla birgə Azərbaycanı Avropa ölkələrində təmsil edir, musiqimizi, mədəniyyətimizi təbliğ edirsiniz. Azərbaycan musiqisini əcnəbilərə sevdirmək çətin deyil?***

- Musiqinin dili yoxdur. Moldovaya gedirsən moldav dilində, Bağdadda ərəb dilində danışmaya bilərsən. Yəni nə mənada, əslində, bu dilləri övladlarımıza da öyrətməliyik, özümüz də bilməliyik. Amma Almaniyada, Fransada olduğumuz hallarda bilməyə də bilərik...

Musiqini eşidəndə həqiqətən də insanın ruhu təmizlənir, gözəlləşir. Bütün dünyanın musiqiləri bizim muğamlarımız üstündə köklənib. Niyə "bizim" deyirəm? Çünki bizim muğamlar, klassik musiqilərimiz var. Hər bir ölkənin musiqisini dinləyəndə deyirsən ki, bu "Şur" üstündə, bu "Mahur" üstündədir. Segah çox ölkədə yoxdur. Heç Cənubi Azərbaycanda segah dinləməmişəm, orda segah yoxdur. Orda mahnılar, musiqilər "Şur", "Mahur", "Çahargah" üstündədir. Yenə də deyirəm, musiqinin dili yoxdur, musiqi səsləndisə o artıq könülləri fəth edir.

***- Belə deyim var: böyük sənət o sənətlə məşğul olan insanın şəxsiyyətindən başlayır. Siz bu fikirlə razısınız, yoxsa, düşünürsünüz ki, şəxsiyyəti olmayan da böyük sənətkar ola bilər?***

*(Ardı var)*

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**